# Allah doğru yola misal çəkir. Yolun iki tərəfində iki divar, divarlarda açılmış qapılar, qapıların üzərinə isə endirilmiş qeyri şəffaf pərdələr vardır. Yolun qapısında bir bələdçi çağırış edir: Ey insanlar, hamınız doğru yola yönəlin, ondan dönməyin

Nəvvas bin Səman Əl Ənsaridən (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Allah doğru yola misal çəkir. Yolun iki tərəfində iki divar, divarlarda açılmış qapılar, qapıların üzərinə isə endirilmiş qeyri şəffaf pərdələr vardır. Yolun qapısında bir bələdçi çağırış edir: Ey insanlar, hamınız doğru yola yönəlin, ondan dönməyin. Kimsə bu qapılardan birini açmaq istədikdə, yolun yuxarısından başqa bir bələdçı səslənir: Vay olsun sənə, qəti o qapını açma, çünki açsan ora girəcəksən. Yol-İslamdır, divarlar isə -Allahın qoyduğu hüdudlardır, açılmış qapılar-haramlardır. Yolun başında duran bələdçi- Allahın kitabıdır. Yolun yuxarısındakı bələdçi isə hər bir müsəlmanın qəlbindəki nəsihətçidir.

[Səhih] [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, uca Allah İslamı doğru və onda əyrilik olmayan yol ilə misal gətirmişdir. Bu yolun iki tərəfində onu əhatə edən iki divar vardır ki, bunlar Allahın hüdudlarıdır. Bu iki divarın daxilinə qapılar açılır ki, bunlar da haramlardır. Bu qapılarda pərdələr vardır ki, yoldan keçən kəs içəridə kim olduğunu görə bilməz.Yolun əvvəlində insanları yönləndirən və onları istiqamətləndirən carçı var ki, onlara belə söyləyər: "Yolun kənarlarına çıxmadan üzərində düz gedin" Bu carçı Allahın kitabıdır. Yolun yuxarısında başqa bir carçı var ki, hər dəfə yol ilə gedən kəs bu qapıların pərdələrini azacıq açmaq istəyəndə onu danlayaraq deyir: "Vay olsun sənə, qətiyyən o pərdəni açma! Əgər açsan, oradan girəcəksən və girməmək üçün özünü saxlaya bilməyəcəksən "Bu isə hər bir müsəlmanın qəlbində olan nəsihətçidir."

https://sunnah.global/hadeeth/az/show/65049

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee